25 iyul / 2020

# Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələrini mükafatlandırıb

Prezident İlham Əliyev Azərbaycan Milli Mətbuatının 145 illik yubileyi ilə əlaqədar kütləvi informasiya vasitələrinin nümayəndələrini mükafatlandırıb.

Dövlətimizin başçısının sərəncamlarına əsasən 3 nəfərə Prezidentin fərdi təqaüdü, 2 nəfərə Əməkdar Mədəniyyət İşçisi, 38 nəfərə Əməkdar Jurnalist fəxri adları verilib.

Prezidentin digər sərəncamları ilə bir nəfər 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2 nəfər 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 3 nəfər "Dostluq" ordeni, 67 nəfər "Tərəqqi" medalı, 22 nəfər isə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, "145 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümünəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra mətbuatımız yeni inkişaf mərhələsinə qədəm qoymuş, öz fəaliyyəti ilə müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, istiqlal ideyalarının yayılmasında, habelə milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində mühüm rol oynamışdır.

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Hazırda həyata keçirilən sistemli islahatlar, şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan sosial innovasiyaların tətbiqi, idarəetmə sahəsində baş verən keyfiyyət dəyişiklikləri, ictimai nəzarət və siyasi dialoq mühitinin genişləndirilməsi dinamik inkişaf edən Azərbaycanda müasir dövlət quruculuğunun başlıca istiqamətlərini təşkil edir".

Azərbaycan mətbuatı bu prosesin dönməz təbliğatçısı və mübariz tribunu kimi fəaliyyət göstərməkdədir.